**SİYASİ ELMLƏR: NƏZƏRİYYƏ VƏ REALLIQLAR**

**UOT 32** **səh. 78-82**

# AZƏRBAYCAN SİYASİ JURNALİSTİKASININ ERMƏNİLƏRİN İDEOLOJİ TƏCAVÜZÜNƏ QARŞI MÜBARİZƏSİ

**Bəhruz Quliyev**
fəlsəfə üzrə fəlsəfə doktoru,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
bahruzkuliyev@yahoo.com
https://orcid.org0009-0007-6087-4985

**Xülasə.** Məqalədə erməni rəsmi dairələrinin, mediasının Azərbaycana, xalqımıza qarşı apardığı ideoloji təxribatlara və təcavüzə qarşı Azərbaycan siyasi jurnalistikasının apardığı mübarizə araşdırılmışdır. Burada regional təhlükəsizliyə qarşı yönəlmiş münaqişəni daha da alovlandıran müharibə və nifrət təbliğatı “mənəvi tərksilah” və ifşa edilmiş, Azərbaycan mediasında Xocalıda törədilən soyqırımı erməni vəhşiliyi, erməni barbarlığı və vandalizmi kimi göstərilmişdir.

Həmçinin erməni quldur dəstələrinin, erməni terrorçularının cinayətkar fəaliyyətləri göstərilmə klə yanaşı, II Qarabağ müharibəsi və müharibədən sonrakı Ermənistandan daxil olan saxta məlumatların əsas hissəsinin xüsusi olaraq uydurulmuş və ya dəyişdirilmiş faktlar olduğu sübuta yetirilərək alt-üst edilmişdir.

**Açar sözlər:** siyasi jurnalistika, erməni media, ideoloji təcavüz, erməni təxribatı, vandalizm, sa xtakarlıqlar, soyqırım.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Ermənistanın saxta, yalançı, düşmənçilik ruhlu təbliğatı, informasiya və hibrid müharibələri ilə üz-üzə qaldı. Halbuki, beynəlxalq standartlara görə, xalqlar arasında etimad və hörmət mühitinin yaradılması tövsiyə olunur, təcavüzkar müharibələrin təbliğindən çəkinmək vəzifəsi qarşıya qoyulur. Müasir dünyada müharibə və nifrətin təbliği uyğun olaraq qanuni hərəkət və tədbirlərin görülməsini tələb edir. Çünki bu təbliğat beynəlxalq insan hüquqlarını, peşəkar jurnalistika standartlarını pozur.

Təbliğatla əlaqədar problemləri həll etmək üçün aşağıdakılar tövsiyə olunur:

“• Media plüralizminin gücləndirilməsi və demokratik dövlətə və jurnalist
peşəsinə uyğun gəlməyən təbliğatın pislənməsi;

• dövlət mediasının və yüksək peşəkar standartlara uyğun ictimai medianın qorunması;

• media təhsili və demokratiyanın təbliğinə, sülh, ifadə azadlığı və müxtəlifliyə əsaslanan jurnalistlərlə ziyalılar arasında beynəlxalq və mədəniyyətlərarası dialoqun inkişafı;

• insan hüquqları və media azadlığı, ixtisaslaşmış orqanlar üzrə özünütənzimləmə və birgə tənzimləmə, peşəkar təşkilatlar və müstəqil monitorinq təşkilatları üzrə milli və beynəlxalq mexanizmlərin fəaliyyətinə yardım edilməsi;

• media və internet savadlılığı üzrə təhsil proqramlarının inkişaf etdirilməsi;

• medianın özünütənzimləmə effektivliyini peşəkarcasına həll etmək üçün ən məqbul yol olaraq nifrət, ayrı-seçkilik və müharibə təbliğatına cavab vermək” [7,c.2].

Ermənistan isə ərazimizi işğal etməklə yanaşı, dövlət mediasında dözümsüzlük mühitini inkişaf etdirir, fərqli inanclarına, milli və dini mənsubiyyətlərinə görə insanlara, o cümlədən azərbaycanlılara qarşı düşmənçiliyi gücləndirir. Mediada azərbaycanlılara qarşı etnik nifrət təbliğ edilir, işğalçılıq müharibəsi ideoloji cəhətdən əsaslandırılır. Azərbaycan və erməni xalqları arasında nifrət, zorakılıq və son nəticədə etnik təmizləməni alovlandırmaq və təbliğ etmək erməni mediasının əsas vəzifəsi olaraq qalır. Erməni jurnalistlər davamlı olaraq yalnız nifrət oyatmağa yönəlmiş “möhtəşəm” yalanlar uydururlar.

“ Media haqqında” Azərbaycan Respublikası Qanununda göstərilir:

- İrqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkiliklər təbliğ olunmamalıdır, habelə etnik, irqi və ya dini düşmənçiliyin salınmasına açıq çağırışlar edilməməlidir;

-terrorçuluq, dini ekstremizm, zorakılıq və qəddarlıq təbliğ olunmamalı, habelə terrorçuluğun maliyyələşdirilməsinə, terrorçuluq məqsədilə təlimlərin təşkil edilməsinə və ya keçirilməsinə yönələn məlumatlar yayılmamalıdır, terrorçuluğa açıq çağırışlar edilməməlidir” [5].

Ermənistan Qarabağ münaqişəsində də beynəlxalq ictimaiyyətin dəstəyinə arxalana bilmək üçün öz imicini və mövqeyini gücləndirməyə çalışırdı. Azərbaycan birbaşa Ermənistana yönəlmiş güclü və dürüst məlumat kampaniyasına üstünlük verirdi. Eyni prinsipə əsasən, Azərbaycan təbliğatının xarici auditoriyaya yönəlmiş mesajları çox vaxt Ermənistana “cavab vermək” cəhdidir. Ermənistan hakimiyyəti sosial şəbəkələrdə nifrət ruhlu informasiyaları yaymaq kimi saxta üsullardan istifadə edir. Xaricdəki erməni diasporu, səlahiyyətli orqanlar medianın müstəqilliyinə zərbə vurur, jurnalistləri yalan yazmağa məcbur edir və ya rüşvətlə ələ alırlar. Onlar medianın plüralizmini təhrif etməklə yanaşı, həm də demokratiyanın əsaslarını sarsıdırlar. Təbliğat təhlükəsi əlverişli bəhanəyə çevrilir. Bundan əlavə, onlar ictimaiyyətə, azad mətbuata, peşə dəyərlərinə mənfi təsir göstərirlər. Müharibə və nifrət təbliğatı özü hərtərəfli təhlükəsizlik prinsipinin əsaslarına qarşı yönəlib. Belə təbliğat münaqişəni alovlandırır və onun gərginləşməsi, zəruri tərksilahın qarşısının alınması təhlükəsizliyi və əməkdaşlığı təhdid edir. Düşmən təbliğatından imtina, sözdə “mənəvi tərksilah” ən mühüm addımlardan biri hesab olunur. İnsanların şüurunda müharibənin qızışdırılmasının qarşısını almaq mühüm rol oynayır.

2020-ci ildə Ermənistanla Azərbaycan sərhədində vəziyyətin kəskinləşməsi zamanı Ermənistandan daxil olan saxta məlumatların əsas hissəsi daha çox xüsusi olaraq uydurulmuş və ya dəyişdirilmiş faktlar idi. Həmçinin, məhz bu dövrdə düşmənin məkrli, hiyləgər və qəddar, eyni zamanda yazıq və zəif olduğunu sübut edən çoxlu sayda siyasi “təhlillər” dərc olunur, saxta xəbərlər yayılırdı:

II Qarabağ müharibəsində düşmən itkilərin əsl sayını gizlədir, öz “hərbi uğurları” haqqında danışır, öz əsgərləri ilə qeyri-insani rəftar edildiyi, cəbhə xəttində şübhəli hazırlıqlar və ya dövlət strukturlarının iddia edilən daxili yazışmalarına istinad etməklə, guya açıqlanan planları barədə saxta xəbərlər və s. yayılırdı. Halbuki müstəqil, azad mətbuatda “böhtana, təhqirə və nifrət çıxışlarına yol verilməməlidir; sağlamlığın və ətraf mühitin qorunmasına zidd olan hərəkətlər təbliğ olunmamalı; faktlar və hadisələr qərəzsiz və obyektiv şərh olunmalı, birtərəfliliyə yol verilməməlidir” [5].

“Mənəvi tərksilah” ideyası 1931-ci ildə ilk dəfə Millətlər Liqasında Polşa tərəfindən səsləndirilib və ilk dəfə 1947-ci ildə Sovet İttifaqı tərəfindən BMT-yə təklif edilmişdir. İdeya praktikada istifadə edilmədi, xüsusən də “Soyuq müharibə dövründə liberal demokratiya “müharibə təbliğatı” və “ideoloji təcavüz” layihələrini dəstəkləmir, sülhə gedən yolun söz azadlığının boğulmasından deyil, maarifləndirmə və müharibəni qızışdıranların ifşasından keçdiyini qeyd edirdi” [6, p.233-234].

Ermənilərin nifrəti qızışdırmaları onların nifrət motivli cinayətlərindən fərqləndirilməlidir. Onların nifrəti “sövqedilən cinayətlər” kimi izah edilir. Nifrət cinayətinin etnik mənsubiyyətinə, cinsinə görə təqib edilməsi ilə azərbaycanlılar qurbana çevrilmişlər. Bu baxımdan “Cinayətlər fiziki hücum kimi, nifrət motivli hərəkətlər, hədə-qorxu, təqib və qəsdən əmlaka zərər vurma” [3,p.1032] kimi özünü ehtiva etdiyi üçün nifrət bir çox fəaliyyət formalarına əsaslanır və cinayətin əsasını təşkil edir.

II Qarabağ müharibəsinin gedişində Azərbaycan Prezidenti İlham Əliyev verdiyi müsahibələrində “Ermənistanın bütün sivil normaları pozaraq işğalçılıq siyasətini hədsiz vəhşiliklər və müharibə cinayətləri törətməklə hələ də davam etdirməsinin bəşəriyyətə qarşı yolverilməz təhdidlər olduğunu açıb göstərdi. Dövlətimizin başçısı həmin günlərdə dünyanın geniş əhatə dairəsi olan türk, rus, ingilis, fransız, ispan, alman, yapon, italyan dillərində yayılan 30-a yaxın aparıcı telekanal, qəzet və informasiya agentliklərinə türk, rus, ingilis dillərində ardıcıl müsahibələr verdi. Müharibənin gedişində işğalçının bir sıra xarici imperialist dairələrdə müdafiə edildiyi, Azərbaycana qarşı düşmənçilik siyasətinin körükləndiyi bir şəraitdə bu müsahibələrin yayılması beynəlxalq ictimaiyyətə Qarabağla bağlı əsl həqiqətləri çatdırmaq, bütün siyasi, diplomatik istiqamətlərdəki uğurları möhkəmləndirmək, haqq işimizə informasiya dəstəyi qazandırmaq məqsədi daşıyırdı [1,s.11].

Azərbaycan qeyri-hökumət təşkilatlarının ekoloji terrora qarşı dinc aksiyaları da ermənilərin ideoloji təcavüzünə məruz qalmışdır.

“Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı, habelə ekoloji vəziyyətin pisləşməsi ilə bağlı ilkin monitorinq məqsədilə Azərbaycan Respublikası dövlət qurumlarının nümayəndələrinin və mütəxəssislərin əraziyə girişinə maneçilik törədilməsi səbəbindən Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekoloqların etiraz aksiyası təşkil olunmuşdur. Azərbaycanın sözügedən ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı dayandırılmalı, bütün təbii sərvətlərin istismarı Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilməlidir” [8].

Erməni mətbuatı və rəsmi dairələri isə azərbaycanlıların haqlı tələblərini riyakarcasına “Laçın dəhlizinin bağlanması, “ Bakının soyqırım siyasətinin növbəti təzahürü”, dağıdıcı və cinayətkar əməl kimi “Artsax xalqı”nın qorxudulması, regionda qeyri-sabitlik mühiti yaratmaq, Rusiya sülhməramlı missiyasının fəaliyyətinə mane olmaq” kimi qiymətləndirmiş və dünya ictimaiyyətində çaşqınlıq yaratmaq cəhdləri etmişlər. Onların belə riyakar əməllərinin davamı kimi, Qarabağda mədənlərin talanmasının təşkilatçısı Ruben Vardanyan sərsəm fikirlər səsləndirərək bildirmişdir ki, “ilkin şərt, heç bir güzəşt olmadan [erməni tərəfdən] qonşu dövlət qazın verilişini bərpa edib”. Onun sözlərinə görə, bu, guya “daxili və xarici təzyiq altında baş verib və “yol gün ərzində açıla bilər”. Ermənistan bu məsələ ilə bağlı Avropa İnsan Haqları Məhkəməsinə, Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edib. Erməni ekspert, ekoloji hüquqşünas Nazeli Vardanyan deyir ki, Bakının məqsədi guya “təbii sərvətləri ələ keçirməkdir”.

Ermənistan parlamentinin bəyanatına görə, “DQ erməniləri üçüncü gündür ki, girovluqdadır”– “1100 nəfər evinə qayıda bilmir, 120 min nəfər blokadadadır”: (halbuki Qarabağdakı ermənilərin sayı 25 min nəfərdir) “Laçın dəhlizi hələ də bağlıdır”, “Laçın dəhlizini ətraf mühitin mühafizəsi adı ilə bağlayan fəallar siyasi və iqtisadi problemləri həll etməyə, mədənin ərazisini müharibəsiz ələ keçirməyə çalışırlar”. 2013-cü ildən Qarabağdakı mədənləri Vallex şirkətlər qrupuna daxil olan “Base Metals” QSC idarə edir. Bu şirkət ən böyük vergi ödəyicisidir və tanınmamış DQR-in ÜDM-nin təxminən 13 faizini təmin edir [4].

Daha sonra Ruben Vardanyan Rusiyanın “Kommersant” qəzetinə müsahibəsində demişdir:

“Biz tam iş şəraitində əhalini lazım olan hər şeylə təmin etmək üçün bir sistem qururuq. Hava limanı işlək vəziyyətdə olmalıdır. Bunun üçün beynəlxalq təşkilatların, bütün ölkələrin təzyiqi lazımdır ki, humanitar dəhliz yaransın və humanitar yük daşıyan təyyarələr Xocalı hava limanına (onlar səhv olaraq onu mövcud olmayan Stepanakert aeroportu adlandırırlar) enə bilsin” [4].

Vardanyanın fikrincə, bu, Azərbaycandan asılı olmamağın yeganə yoludur, çünki belə halların təkrarlanma ehtimalı yüksəkdir. O, hava limanının “tam işlək vəziyyətdə” olduğunu vurğulayıb. Şübhəsiz ki, Azərbaycan ərazisinə yenə də humanitar yardım adı altında silah daşımaq istəyirlər.

O, Bakı ilə mümkün dialoqdan danışarkən deyib:

“Azərbaycan başa düşməlidir ki, Qarabağ erməniləri danışıqlar aparan tərəf kimi tanınmalıdır, ondan sonra hər şey müzakirə oluna bilər [4].

Azərbaycan hakimiyyəti dəfələrlə bəyan edib ki, onlar “Qarabağ ermənilərinin taleyini heç kimlə müzakirə etmək fikrində deyillər”, bu, “bizim daxili işimizdir”. Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyev “Moskvadan göndərilən”lərlə bu məsələ ilə bağlı danışıqlar aparmaq niyyətində olmadığını bildirmişdi.

Qonşu ölkə ilə bağlı nəşrlər və televiziya proqramlarında guya Azərbaycan tərəfindən mədəniyyət abidələrinin dağıdılması ittihamları, tarix, milli kök və mənşəyilə bağlı mübahisələr mühüm yer tutur. “Qolos Armenii” qəzetində dərc olunan “Arminfo” informasiya agentliyinin “Azərbaycan dilində tarixin milliləşdirilməsi” sərlövhəli qeydində deyilir: “Son zamanlar xristian erməni tarixi-memarlıq abidələrinin mənimsənilməsi prosesi gücləndirilib”. “Dağlıq Qarabağ ermənilərinin albanlar kimi elan edilməsi həm də Bakının Artsaxın tarixini təhrif etmək və beynəlxalq ictimaiyyəti çaşdırmaq cəhdlərindəki kobud və yöndəmsiz hiyləsidir”, .

Həmin qəzetdə "Azərbaycanın qondarma tarixi. Azərbaycan və Ermənistan, təxəyyül və faktlar" kitabının nəşri ilə bağlı məqalə dərc olunub. Kitabın müəllifi Ruben Qalçyan müsahibəsində qeyd edib ki, Azərbaycanın öz alimləri vasitəsilə ermənilərin bölgəmizdə cəmi 150 il əvvəl peyda olduğunu nəyin bahasına olursa-olsun sübuta yetirmək üçün göstərdiyi aşkar cəhdlərdən belə çıxır ki, onlar,

azərbaycanlılar guya bu torpağın və mədəniyyətin sahibləridir: "Dünya xəritəsində ilk dəfə 1918-ci ildə görünən bir ölkədən bəhs edilir. Təəssüf ki, bizim alimlərimiz və mütəxəssislərimiz bu böyük yalanın qarşısını almaq üçün çox az iş görüb və çox az iş görürlər və bu mövzuda çap olunmuş kitablarımız demək olar ki, yoxdur". Müsahibədə Azərbaycanda nəşr olunan "Qərbi Azərbaycan abidələri" kitabından da bəhs edilib. Orada "Qərbi Azərbaycan Oğuz türklərinin vətənidir" adlı Ermənistan xəritəsi var. Bu münasibətlə Ruben Qalçyan deyib: "Əgər biz bu nəşrə görə məhkəməyə müraciət etməsək, gələcək nəsillər qarşısında çox günahkar olacağıq. ... Xaçkarlarının dağıdılmasına dair təkzibolunmaz sübutlara malik olmaqla, demək olar ki, heç nə etmədik və "Qərbi Azərbaycan abidələri"ni aldıq. Biz susacağıq?" [2]

Ermənistan-Azərbaycan münasibətləri kontekstində mədəni irs problemi müxtəlif səviyyələrdə, o cümlədən rəsmi səviyyədə mətbuat vasitəsilə qaldırılıb. Ermənistan İctimai Televiziyasının Birinci Kanalının "Hailur" xəbər proqramı Ermənistan Respublikasının keçmiş xarici işlər naziri Edvard Nalbandyanın YUNESKO-nun 35-ci Baş Konfransındakı çıxışının məzmununu yayımlayır. Nazir xüsusilə Ermənistandan kənarda yerləşən erməni abidələrinin taleyindən, onların İranda qorunduğundan, Azərbaycanda isə erməni mədəni irsindən "azad edilməsi" cəhdlərinin davam etdirilməsindən danışıb. Nalbandyan UNESCO-nun mədəni hüquqların pozulmasına müqavimət göstərə biləcəyinə və bununla da qlobal mədəniyyətlərarası dialoqa və tolerantlığın güclənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Əslində, mətbuatın işıqlandırdığı elə bir sahə yoxdur ki, orada Ermənistan-Azərbaycan qarşıdurması öz əksini tapmasın. Azərbaycanda baş vermiş "informasiya müharibəsi" probleminə daha çox toxunulub. "Aravot" qəzetinin baş redaktorunun "Daha bir cəhd" məqaləsi Azərbaycan, Ermənistan və Rusiyanın aparıcı KİV nümayəndələrinin Moskva görüşünə həsr olunub. "Azərbaycan tərəfində müxtəlif fəaliyyət dərəcələri ilə qondarma "informasiya müharibələri"ndə - işğalda iştirak edən internet saytlarının rəhbərləri (Day.az, Trend, News.az, 1news.az) toplaşıblar.

"Azg" qəzetində "Kitab öz xalqına həsr olunub" nəşri Ermənistan KP MK-nın keçmiş birinci katibinin (1988-1990) Suren Arutyunyanın 70 illik yubileyinə təsadüf edirdi. O, nəşr olunmuş tərcümeyi-halından danışır Arutyunyan "Keçmiş və bu gün haqqında". Xüsusilə Ermənistanın keçmiş liderinin Ermənistan-Azərbaycan münasibətlərinin perspektivinə yanaşması verilir. Suren Arutyunyan hesab edir ki, hazırda bu münasibətlər daha çox rasional deyil, emosional zəmin üzərində qurulub: "Təəssüf ki, həm Ermənistanda, həm də Azərbaycanda qeyri-konstruktiv, düşmənçilik ritorikası üstünlük təşkil edir ki, bu da ictimai rəyi güzəştə getməyə və ziddiyyətləri yumşaltmağa sövq etmir. Hazırkı vəziyyətdə hər iki tərəfin təmkinli olması vacibdir"[2] Lakin erməni tərəfi məkrli planları, ideoloji təxribatları,yalanları ilə tamamilə fərqli mövqe tutur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan üzərində informasiya qələbəsindən bəhs edərkən 2020-ci il fevralın 15-də keçirilən Münhen Təhlükəsizlik Konfransı xüsusi qeyd olunmalıdır. "Həmin gün müasir Azərbaycan tarixinin ən həlledici günlərindən biri kimi yadda saxlanılmalıdır. Çünki məhz həmin gün Prezident İlham Əliyevin qazandığı növbəti mənəvi-intellektual zəfər Ermənistan üçün sonun başlanğıcı sayıla bilər. Bu, hamıya – Ermənistana və bütün dünyaya xəbərdarlıq idi ki, lap yaxın zamanlarda təcavüzkar Ermənistan diz çökdürüləcək. Terrorizmi dövlət siyasətinə çevirmiş işğalçı ölkə rəzil duruma salınacaq, erməniçiliyin yalanlar üzərində qurulmuş bütün cəfəng illüziyaları darmadağın ediləcək. Azərbaycanın dövlət başçısı II Qarabağ savaşında bu niyyətini təkcə döyüş meydanında deyil, həm də informasiya sahəsində böyük məharətlə gerçəkləşdirdi. Və bu məsələdə onun xarici ölkələrin kütləvi informasiya vasitələrinə verdiyi parlaq müsahibələr də öz tarixi rolunu oynadı. Üz-üzə dayanan Həqiqət və Yalan savaşında AZƏRBAYCAN – yəni böyük hərflərlə HƏQİQƏT qalib gəldi" [1,s.9].

Beləliklə, dövlətçilik, vətənpərvərlik mövqeyi ilə seçilən Azərbaycan siyasi jurnalistikası erməni mediasının ideoloji təxribatlarını, yalanlarını, saxtakarlıqlarını ifşa etmişdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri: Dərs vəsaiti. – Bakı: BDU, 2021. — 304 səh.)

2. Армяно-азербайджанские взаимоотношения в медиа Армении и Азербайджана. ОЖА “Ени Несил”, ЕПК //https:// epfarmenia. am/sites/default/files/Document/Arm_Az_Relations_-Media_Arm_and_Azerb_Monitoring_Russian_2009.pdf

3. Cortés, Carlos E. (2013). Multicultural America: A Multimedia Encyclopedia (Многокультурная Америка: Мультимедийная энциклопедия). Thousan d Oaks, US: Sage. Стр. 1032.

4. «Задача—закрыть Лачинский коридор навсегда не поставлена». Мнение из Еревана //https:// jam-news.net/ru/ Задача закрыть Лачинский_коридор_ навсегда _не поставлена_-/12.12.2022

5. “Media haqqında” qanun layihəsinin tam mətni //https:// qaynarinfo .az /az/ media-haqqinda-qanun-layihesinin-tam-metni/ 7/35 11.02.2022

6. Murty B. S. The International Law of Propaganda: The Ideologica l Instrument and World Public Order (Международное право пропаганды: Идеологический инструмент и мировой общественный порядок). New Haven Studies in International Law and World Public Order. Kluwer, 1989. Стр. 233-234.

7. Пропаганда и свобода массовой информации. Памятная записка бюро представителя ОБСЕ по вопросам свободы СМИ, г. Вена, 2015,88 с.

8. Şuşa-Xankəndi yolunda keçirilən aksiya vətənpərvərlik nümunəsidir //https://gdu.edu.az-/susa-xankəndi-yolundaki-aksiyavətənpər-vərlik-numu-nəsidir/16.12.2022

## БОРЬБА СМИ АЗЕРБАЙДЖАНА ПРОТИВ ИДЕОЛОГИЧЕСКОЙ АГРЕССИИ АРМЕНИИ

**Бахруз Гулиев**

**Резюме.** В статье анализируется основная стратегия борьбы азербайджанской политической журналистики (Азербайджана и азербайджанского народа) с идеологическими провокациями и агрессией со стороны официальных кругов и СМИ Армении. Так же рассматриваются такие факты, как «моральное разоружение» и разоблачение пропаганды войны и ненависти, которые еще больше разжигают конфликт и направлены против региональной безопасности. В азербайджанских СМИ показан геноцид, совершенный армянами в Ходжалы против азербайджанцев; армянское варварство и вандализм; показана преступная деятельность армянских бандитов и террористов. Автором разоблачается факт фальсификации информаций во время Второй Карабахской войны и послевоенный период в Армении.

**Ключевые слова:** политическая журналистика, армянские СМИ, идеологическая агрессия, армянская провокация, вандализм, фальсификация, геноцид

## THE STRUGGLE OF AZERBAIJAN POLITICAL JOURNALISM AGAINST THE IDEOLOGICAL ATTACK OF THE ARMENIANS

**Bahruz Guliyev**

**Abstract.** The article examines the struggle of Azerbaijani political journalism against ideological provocations and aggression by Armenian official circles and media against Azerbaijan and our people. Here, war and hate propaganda, which further inflames the conflict against regional security, is "morally disarmament" and exposed, the Armenian genocide in Khojaly, Armenian barbarism and vandalism, the criminal activities of Armenian bandits, Armenian terrorists are shown in the Azerbaijani media, the Second Karabakh War and post-war Armenia are included. The main part of the fake information is mostly fabricated or altered facts.

**Keywords**: political journalism, Armenian media, ideological aggression, Armenian provocation, vandalism, frauds, genocide

**Rəyçi: s.e.f.d., dos. Sənan Həsənov**